# Ötən ilin buraxılış obyektləri

Ötən ilin ilk əlamətdar hadisələrindən biri bu olmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iki dəfə—yanvar ayının 3-də və sentyabr ayının 22-də Qəbələyə rəsmi səfərə gəlmişdir. İlk səfəri zamanı «Tufandağ» qış-yay turizm istirahət kompleksinin birinci mərhələsinin açılışında iştirak etmişdir.

Kompleksin birinci mərhələsi çərçivəsində dörd kanat xətti tam inşa olunmuş, on xizək yolundan 5-də inşaat işləri başa çatmışdır. Digər inşaat işləri mərhələlərlə davam edir.

Bu nəhəng istirahət mərkəzi ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə, qış mövsümündə xizəklə sürüşməyə imkan verəcək, onlar xizəkçilik məktəbindən, otel və digər xidmətlərdən istifadjə edə biləcəklər. Bütün dağ-xizək trassası süni qaryağdırma generasiya sistemi ilə təchiz edilmişdir. Ölkənin tarizm brendi gün ərzində 3000 nəfərə xidmət göstərmək imkanına malikdir.

## Yengicə və Zirik kəndlərində yeni məktəb binaları istifadəyə verilmişdir

Sentyabr ayının 15-də Bilik Günü






rayonun Zirik kəndində 220 şagird, Yengicə kəndində 80 şagird yeri olan 2 yeni məktəb binası istifadəyə verilmişdir. Açılış mərasimlərində respublika Ağsaqqallar Şurasının sədri Milli Məclisin üzvü Fəttah Heydərov və rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak etmişlər.

Həmin gün 230 şagird yerlik Böyük Pirəli tam orta məktəbi də əsaslı təmirdən sonra müəllim və şagird kollektivlərinin istifadəsinə verilmişdir.

## «Qafqaz Yengicə Termali Hotel və SRA» kompleksinin açılışı

Azərbaycan Respubliksının Prezidenti 22 sentyabr 2014-cü ildə ikinci dəfə Qəbələdə rəsmi səfərdə olmuş bir sıra obyektlərin açılışının



rəmzi qırmızı lentini kəsmişdir. Cənab Prezident ilk olaraq «Qafqaz Yengicə Termal Hotel və SPA» kompleksinin açılışında iştirak etmişdir.

Otel kompleksi 9 hektar ərazidə inşa edilib. Burada turistlərə və qonaqlara müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi altımərtəbəli otel kompleksi gözəl memarlıq üslubunda tikilib. Oteldəki 61 nömrədə qonaqların rahat istirahəti üçün hər cür şərait vardır. Kompleksdə 100 nəfər üçün daimi iş yeri nəzərdə tutulur.

## Gilan Qida Şəhərciyi

Gilan Qida Şəhərciyində müxtəlif zavodlar yaradılması rəqabətə davamlı və müasir standartlara cavab verən qida sənayesinin inkişafına mühüm töhfədir. Burada 2 yeni emal müəssisəsi inşa olunub. Yeni müəssisələrin tikinti sahəsi 120 min kvadratmetrdir. Kartof emalı müəssisəsində iki istehsal xətti quraşdırılıb. Burada yarımfabrikat dondurulmuş kartof və kartof cipsi istehsal edilir. İstehsal gücü saatda 3 ton hazır məhsuldur.

Xammal 6 min kvadratmetr sahəsi olan iki soyuducu ambara yerləşdirilir.

Sərinləşdirici içkilər istehsalı müəssisəsindəki üç istehsal xəttində 9 növ qablaşdırmada 48 seşiddə məhsul istehsal edilir. Müəssisənin istehsal gücü saatda 10 min litirdir. Digər xətt saatda 30 min litr hazır limonad və digər qazlı sərinşləşdirici içkilər, qazlı və qazsız su istehsalı üçün nəzərdə tutulub. Başqa bir xəttə saatda 5 min litr qazlı və qazsız su, qazlı sərinləşdirici içkilərin istehsalı planlaşdırılmışdır.

Yeni müəssisədə 380 nəfər daimi işlə təmin olunub.

## Daxili Qoşunların Qəbələdəki «N» saylı hərbi hissəsində inşa olunan yeni şəhərcik

Daxili Qoşunların Qəbələdəki «N» saylı hərbi hissəsi üçün inşa edilən şəhərcik 5,5 hektar ərazidə yerləşir. Burada beşmərtəbəli qərargah, əsgər yataqxanası və yeməkxanası, nəzarət-buraxılış məntəqəsi və zabit yataqxanası tikilib. Ərazidə digər yardımçı tikintilər də vardır.

### Mirzəbəyli—Çuxur Qəbələ—

## Dızaxlı—Çarxana avtomobil yolu istiadəyə verilmişdir



Əvvəlki illərdə olduğu kimi ötən il də rayonda yol-nəqliyyat kompleksinin yenidən qurulması davam etmişdir. Uzunluğu 14,2 kilometr, eni 6 metr olan 4-cü texniki dərəcəli Mirzəbəyli—Çuxur Qəbələ—Dizaxlı—Çarxana avtomobil yolunun yenidən qurulması ötən ilin sentyabr ayında başa çatmışdır. Yolun Qaraçay üzərində olan hissəsində iki körpü inşa olunmuşdur. Bundan başqa yol boyunca süötürücülər və avtobus dayanacaqları tikilmişdir. Yolun ən mühüm amili 8 yaşayış məntəqəsini birləşdirməsidir. Yol eyni zamanda iqtisadiyyatın və turizmin inkişafında mühüm amilə malikdir.

## Qəbələ Arxeoloji Mərkəzinin açılışı

Respublikamızda aparılan arxeoloji qazıntıların aparıldığı bölgə-



lərdən biri də təqribən 800-900 il bundan əvvəl qədim Qafqaz Albaniyasının paytaxt şəhəri olan Qəbələdir. Bölgədə arxeoloji qazıntılar 1926-cı ildən başlamış və müəyyən fasilələrlə davam etmişdir. 1959-cu ildən isə burada fasiləsiz qazıntı işləri aparılır. Son illərdə bu sahədə SEBA-Azərbaycan Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının gördüyü işlər mühüm yer tutur. Arxeoloji Mərkəz də elə SEBA-nın dəstəyi ilə tikilmişdir.

Qəbələ Arxeoloji Mərkəzinin 3 mərtəbəli binası sərgi salonu, arxeoloji fond, bərpa laboratoriyası, konfrans zalı və arxeoloqların çalışdığı otaqlardan ibarətdir. Burada həmçinin Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun ofisi də fəaliyyət göstərir.

Mərkəzin açılışından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev buradakı sərgi salonu ilə llə də tanış olmuşdur.

**N. ATAKİŞİYEV.**
**Fotolar S. Umuyevindir.**

# 2015-ci ilin qeyri-iş günlərinin sayı açıqlandı

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) mülkiyyət və təşkilatı-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda Əmək Məcəlləsinin tələblərinə uyğun şəkildə işçilərin iş vaxtı normasının düzgün hesablanması və tətbiq edilməsi məqsədilə 2015-ci ilin İstehsalat təqvimi və İş vaxtı normasını hazırlayaraq təsdiqləyib. APA TV-nin məlumatına görə, sənədə əsasən, 2015-ci ildə həftələrarası istirahət günlərinin iş günləri hesab olunmayan bayram günləri ilə üst-üstə düşməsi ilə əlaqədar olaraq beşgünlük iş həftəsində 9, 25, 26 mart, 11 may, 20 iyul, altıgünlük iş həftəsində isə 9 və 25 mart tarixləri istirahət günləridir. 2015-ci ilin fevral ayı 28 təqvim günündən, il isə 365 təqvim günündən ibarətdir. Gələn il beşgünlük iş həftəsində 242 iş günü, iş günü hesab edilməyən 109 istirahət günü və 1 ümumxalq hüzn günü var.

Əmək Məcəlləsinə əsasən, Azərbaycanda gündəlik normal iş vaxtının müddəti 8 saatdan artıq ola bilməz və bir qayda olaraq, iki istirahət günü olan beşgünlük iş həftəsi müəyyən edilir. Gündəlik normal iş vaxtına uyğun olan həftəlik normal iş vaxtının müddəti isə 40 saatdan artıq ola bilməz. 2015-ci ilin iş vaxtı norması 40 saatlıq beşgünlük iş həftəsi üzrə 8 saatlıq iş günü hesabından müəyyən edilir. Bu zaman iş günü hesab edilməyən bayramqabağı, səsvermə, habelə Ümumxalq hüzn günü qabağı iş günlərində həftəlik iş günlərinin müddəti bir saat qısaldılır. Əmək Məcəlləsinə əsasən, altıgünlük iş həftəsi tətbiq edilərkən həftəlik norma 40 saat olduqda gündəlik iş vaxtının müddəti 7 saatdan və bilavasitə sonrakı gün istirahət günü olan iş gününün müddəti isə 6 saatdan çox ola bilməz.

# Şahmat üzrə rayon birinciliyi

Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə şahmat məktəbində 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş oğlan və qızlar arasında şahmat üzrə rayon birinciliyi keçirilmişdir.

Birinciliyin açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək bidirdi ki, yarışın keçirilməsində məqsəd iştirakçıların idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etmək, müvafiq yaş qrupları üzrə rayonun yığma komandasının tərkibini müəyyən etməkdən ibarətdir. Daha sonra çıxış edənlər "Dünya Azərbaycanlılarının Həmrəyliyi günü" münasibəti ilə yarış iştirakçılarını təbrik edərək onlara uğurlar arzuladılar.

8-10-12-14 və 16 yaş qruplarında yeniyetmə və gənclər dairəvi sistem üzrə mübarizə aparmışlar. Yarışda 60-a qədər oğlan və qızlar öz qüvvələrini sınamışlar.

**Elçin OSMANOV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**